

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 167 (20.821)

7 sentyabr 2013-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da İordaniya Haşimilər Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel Mohammad Adailehi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İordaniya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu və uğurla inkişaf etdiyini vurğuladı. İordaniya Kralı II Abdullahla görüşlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Adel Mohammad Adaileh ölkəmizdəki diplomatik fəaliyyətinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə, şəxsən Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. Azərbaycanı özünün ikinci vətəni hesab etdiyini bildirən iordaniyalı diplomat ölkəmizdə çalışdığı dövrdə sürətli inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla qeyd etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakının Nəsimi rayonundakı 19 və 240 nömrəli tam orta məktəblərin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.

## Nəqliyyat işçiləri payız-qış mövsümünə hazırlaşırlar

***"Muxtar respublika üçün payız-qış mövsümündə nəqliyyat sisteminin dayanıqlı fəaliyyəti böyük əhəmiyyət kəsb edir. İqtisadiyyatın infrastruktur sahələri olan istilik, enerji, rabitə və digər sahələrlə yanaşı, nəqliyyat sahəsi də qarşıdan gələn mövsümdə tələbatı tam təmin etməlidir". Bu fikirləri dünən Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində keçirilən müşavirədə nəqliyyat naziri Mirsənani Seyidov deyib.***

Nazir bildirib ki, avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə yeni mövsümə hazırlıqla bağlı Nəqliyyat Nazirliyinə və nazirliyin strukturuna daxil olan təşkilatlara bir sıra tapşırıqlar verilib. Ötən müddət ərzində verilən tapşırıqların icrasına başlanılıb. İlkin olaraq ucqar dağ və sərhəd kəndlərinə işləyən marşrut-avtobuslarının texniki müayinədən keçirilməsi işi təşkil olunub. Nazirliyin texniki müayinə komissiyası muxtar respublika Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları ilə birlikdə bu nəqliyyat vasitələrinin texniki sazlığına nəzarəti həyata keçirib, bu sahədəki çatışmazlıqların aradan qaldırılması üçün nəqliyyat vasitələri sahiblərinə vaxt verilib. Bundan başqa, nazirlikdə fəaliyyət göstərən texniki müayinə komissiyası tərəfindən nazirliyin lisenziyası əsasında fəaliyyət göstərən yük və sərnişindaşıma ilə məşğul olan bütün nəqliyyat vasitələrinin payız-qış mövsümünə hazırlıqla əlaqədar texniki müayinədən keçirilməsi təşkil edilib.

Qeyd edilib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar Naxçıvan Şəhər Nəqliyyat İdarəsində nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətinin təmin edilməsinə xüsusi diqqət yetirilir. Avtomobillərin texniki sazlığı yoxlanılır, nasaz olan hissələr dəyişdirilir. Bu iş hazırda sürətlə davam etdirilir, avtobusların qızdırıcı sistemlərinin sazlığı yoxlanılır.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin idarə və strukturlarında ötən ilin payız-qış mövsümünün nəticələri təhlil edilərək, tədbirlər planı əsasında sahələr üzrə müəyyən işlər görülür. Qatarların hərəkəti ilə əlaqədar yeni işə qəbul edilmiş işçilərə payız-qış mövsümünə dair texniki məşğələlər keçirilməklə onlara qış şəraitinin xüsusiyyətləri öyrədilir. Stansiyalarda qatarların tərtibatı, etibarlı manevr əməliyyatını təmin etmək üçün manevr lokomotivlərinin vəziyyəti yoxlanılaraq mövcud nasazlıqlar aradan qaldırılır. Lokomotivlərin və sərnişin vaqonlarının payız-qış mövsümünə hazırlığı ilə əlaqədar tələb olunan ehtiyat hissələr və 25 ton sürtgü yağı tədarük edilib, istilik sistemləri işləyən vaqonların qış mövsümündə qızdırılması üçün 53 ton daş kömür ehtiyatı yaradılıb. Elektrovoz və teplovozlara baxış keçirilib. Hazırda sərnişin vaqonlarının cari təmiri aparılmaqdadır.

Dəmiryol təsərrüfatında çalışan bütün aidiyyəti işçilər xüsusi geyim, ayaqqabı və fərdi mühafizə vasitələri ilə təchiz olunublar. Sahələrdə istifadə edilən və standartlara cavab verməyən bütün işçi alətləri yeniləşdirilir. Sərnişin vağzalı binalarında və inzibati idarə binalarında istilik sisteminin tənzimlənməsi məqsədilə quraşdırılan 9 qazanxana yoxlanılıb, istismara tam hazır vəziyyətə gətirilib.

Bildirilib ki, "Naxavtoyol" Dövlət Şirkətinin qış mövsümündə işləyəcək mexanizatorları isti paltarlarla təmin edilib, çətin hava şəraitində işləyəcək avtomaşınlar üçün zəncir tədarük olunub, payız-qış dövründə işlədiləcək avtomaşın və yol texnikası saz vəziyyətə gətirilib. Belə ki, 11 ədəd avtoqreyder, 27 ədəd özüyükünüboşaldan avtomaşın, 9 ədəd buldozer, 1 ədəd qumsəpən avtomaşın, 7 ədəd ekskavator və 4 ədəd avtoyükləyici yeni mövsümə hazır vəziyyətdədir. Asfalt yollarında işləyəcək avtoqreyderlərə asfalt-beton örtüyün dağılmaması üçün rezin bıçaqlar tədarük edilib. Ucqar dağ kəndlərinə gediş-gəlişi təmin etmək üçün həmin kəndlərin yollarını təmizləyən maşın-mexanizmlər ayrılıb. Onların payız aylarından yanacaqla təmin olunması nəzərdə tutulub. Həmçinin avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan qum tədarükü diqqət mərkəzində saxlanılıb. Tədarük olunan 2000 kubmetrdən artıq Şorsu materialının yerlərə paylanması nəzərdə tutulub. Bundan başqa, şirkətdə qərargahın yaradılması, fövqəladə şərait rejimində işləmək üçün növbətçilik qrafiki və xəbərvermə xidmətinin təşkili, istismar olunan yollarda əsaslı və orta təmir işlərinin başa çatdırılması, yol kənarlarında və çiyinlərdə olan materialların yoldan kənarlaşdırılması işlərinin həyata keçirilməsinə başlanılıb.

Naxçıvan Beynəlxalq Hava Limanında da payız-qış mövsümü ilə bağlı bir sıra tədbirlər həyata keçirilib, istismar müddəti ötmüş avadanlıqlar yeniləri ilə əvəz olunub. İkimərtəbəli Start Dispetçer Məntəqəsi təmir olunaraq müasir avadanlıqlarla təchiz edilib. Uçuş-enmə zolağında və dayanacaqlarda beton səthin üzərində zədələnmiş yerlərdə təmir işləri aparılıb.

Sonra məruzə ətrafında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyevin, Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədlinin, "Naxavtoyol" Dövlət Şirkətinin Baş direktoru Bəhruz Əsgərovun çıxışları olub.

Müşavirəyə Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Sahibkarlarla görüş keçirilib

**Sentyabrın 6-da Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə yaradılması iqtisadi cəhətdən səmərəli hesab edilən layihələrin təqdimatı məqsədilə Naxçıvan Biznes Mərkəzində sahibkarlarla görüş keçirilib.**



Tədbiri iqtisadi inkişaf naziri Famil Seyidov açaraq muxtar respublikada sahibkarlığın inkişafı üçün yaradılan şəraitdən danışıb. Qeyd olunub ki, əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası bu gün uğurla inkişaf və davam etdirilir. İqtisadi tərəqqinin əsas təməl prinsiplərindən olan sahibkarlıq mühitinin genişləndirilməsi, sahibkarlara hərtərəfli dövlət qayğısının göstərilməsi, fəaliyyət sahəsindən asılı olmayaraq, onlara müxtəlif güzəştli kreditlərin verilməsi həyata keçirilən mühüm tədbirlərdəndir. Bunun nəticəsidir ki, muxtar respublikamızda sahibkarlar dövlət dəstəyindən lazımınca yararlanır, onların sayı ildən-ilə artır.

Vurğulanıb ki, hazırda qarşıda duran əsas vəzifələrdən biri muxtar respublikanın daxili tələbatını ödəyən bütün növ məhsulların istehsalına nail olunması və ixracyönümlü məhsulların həcminin artırılmasıdır. Bu sahədə əsas vəzifənin sahibkarların üzərinə düşdüyünü qeyd edən nazir onlara hərtərəfli dəstəyin bundan sonra da göstəriləcəyini bildirib.

Nazirliyin şöbə müdiri Emin Zeynalov çıxışında xarici bazara giriş yolları və beynəlxalq marketinq tədbirlərindən bəhs edib, yeni nəşr olunmuş "İxracatçılar üçün təlimat kitabı" haqqında iştirakçıları məlumatlandırıb. Kitabın elektron variantda nüsxələri iştirakçılara paylanılıb.

Sonra yaradılması iqtisadi cəhətdən səmərəli hesab edilən layihələrin təqdimatı olub. Adıçəkilən qurumun sektor müdiri Rauf Rəhimov layihələr haqqında geniş məlumat verərək sahibkarları maraqlandıran sualları cavablandırıb.

Tədbir mərkəzdə nümayiş olunan yerli istehsal məhsullarından və əl işlərindən ibarət sərgiyə baxışla başa çatıb.

## "Xaraba Gilan" arxeoloji ekspedisiyası bu il aparılan arxeoloji tədqiqatların nəticələrini açıqlayıb



***Dünən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Xaraba Gilan" arxeoloji ekspedisiyasının 2013-cü ildə muxtar respublika ərazisində apardığı arxeoloji tədqiqatın nəticələrinə həsr olunmuş yığıncaq keçirilib.***

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev artıq bir neçə ildir ki, muxtar respublika ərazisində təşkil edilən arxeoloji ekspedisiyaların səmərəli fəaliyyətindən bəhs edib və bu arxeoloji ekspedisiyaların bir çoxunun beynəlxalq ekspedisiyalar olduğunu vurğulayıb. Qeyd olunub ki, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşlarının da fəal iştirak etdiyi arxeoloji ekspedisiyalarda ötən illər ərzində ABŞ, Fransa, Macarıstan, Türkiyə, Suriya və Rusiyadan olan tədqiqatçılar iştirak ediblər.

"Bu il "Xaraba Gilan" arxeoloji ekspedisiyası tərəfindən aparılan arxeoloji tədqiqatların ən mühüm nəticələrindən biri ondan ibarətdir ki, biz Naxçıvan tarixinin ilkin orta əsrlər dövrü tarixinə aid tapıntıları aşkara çıxarmışıq. Bu, o cəhətdən mühümdür ki, Naxçıvanın ilkin orta əsrlər tarixi dövrü digər dövrlərə nisbətən az tədqiq olunub". Bu fikirləri AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, "Xaraba Gilan" arxeoloji ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimli səsləndirib. Arxeoloji ekspedisiyanın tədqiqatları barədə məlumat verən Bəhlul İbrahimli ekspedisiya üzvlərinin Ordubad rayonu ərazisində yerləşən arxeoloji abidələrdə – Dəlmə qalasında, Rəsul dərəsində, II və III Plovdağ nekropollarında və Aza yaşayış yerində tədqiqatlar apardığını diqqətə çatdırıb.

Bəhlul İbrahimli arxeoloji ekspedisiyaya göstərilən diqqətə görə minnətdarlığını bildirib və arxeoloji ekspedisiya üzvlərinin 80 faizinin yerli mütəxəssislər olmasının təqdirəlayiq hal olduğunu vurğulayıb.

Sonra yığıncaq iştirakçılarını maraqlandıran suallar cavablandırılıb. AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, professor Hacıfəxrəddin Səfərli "Xaraba Gilan" arxeoloji ekspedisiyasının apardığı tədqiqatlar nəticəsində əldə olunmuş bir sıra maddi-mədəniyyət nümunələrinin institutda yaradılmış muzeyə təhvil verilməsinin müsbət hal olduğunu qeyd edib.

Yığıncağa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**Xəbərlər şöbəsi**

**Təhsil hər bir xalqın milli intibahını təmin edən ən zəruri vasitədir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həlli, ilk növbədə, bu sahənin tərəqqisindən keçir. Təhsilin inkişafı sahəsində mövcud ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin müasir dövrün tələbləri səviyyəsində inkişafı müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahəyə xüsusi diqqət və qayğı göstərmiş, təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşmış, xalqın intellektual səviyyəsinin artırılmasını ən vacib vəzifələrdən biri kimi qarşıya qoymuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə respublikada təhsil ocaqları üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır. O illərdə Azərbaycanda əldə edilən mühüm tarixi nailiyyətlərdən biri də milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Bu məqsədi uğurla həyata keçirmək üçün dahi rəhbər Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. Həmin dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın gənc göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdır.**

Naxçıvan şəhər 10 nömrəli tam orta məktəb



# Təhsilə qayğı öz bəhrələrini verir

Ulu öndər Heydər Əliyev ordu quruculuğu işinə, azərbaycanlılardan ibarət milli zabit kadrlarının yetişdirilməsinə də qayğı ilə yanaşmış, bu sahənin formalaşması üçün bütün siyasi və iqtisadi potensialı səfərbər etmişdir. O zaman Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması Azərbaycanda peşəkar hərbi kadrların yetişdirilməsinə böyük töhfə idi. 1976-1982-ci illərdə yüzlərlə azərbaycanlı gənc Sovetlər Birliyinin müxtəlif 54 ən qabaqcıl ali hərbi məktəblərinə və akademiyalarına təhsil almağa göndərilmiş, milli kadrların hazırlanması problemi öz uğurlu həllini tapmışdır.

1990-1993-cü illərdə respublikamızda hökm sürən ümumi böhranlı vəziyyət – iqtisadi tənəzzül prosesinin dərinləşməsi, ictimai-siyasi sabitliyin olmaması elm və təhsil sahəsində də bir sıra problemlərin yaranmasına gətirib çıxarmışdı. Azərbaycan elmi tənəzzül girdabında çırpınır, nüfuzlu alimlər, bütün həyatını təhsilə həsr etmiş adlı-sanlı müəllimlər özlərinə layiq olmayan sahələrə üz tutur, beləliklə, mənəvi depressiya elmi mühitə getdikcə daha çox hakim kəsilirdi. Bu böhranlı vəziyyəti yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə yenidən qayıdışından sonra aradan qaldırmaq, təhsil sahəsində dövlət siyasətinin mühüm istiqamətlərini müəyyənləşdirmək mümkün olmuşdur. Ulu öndər milli təhsilin inkişafı və onun qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyasını ciddi vəzifə kimi müəyyənləşdirmiş, bu sahədə aparılacaq islahatların mahiyyətini açıqlamışdır. Dahi rəhbərin irəli sürdüyü təhsil konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin sürətlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil edir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, təhsilin yeniləşdirilməsi istiqamətində də əsaslı tədbirlər həyata keçirilmişdir. Ötən dövrdə Azərbaycan təhsili həm məzmun, həm də struktur baxımından yeniləşmiş, bu sahənin beynəlxalq əlaqələri genişlənmiş, dünya təhsil sisteminə inteqrasiya intensivləşmişdir.

Müstəqillik illərində də Azərbaycanda təhsilin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildən sonra təhsil sahəsində uğurlu islahatlar aparılmış, ali təhsil müəssisələrinin şəbəkəsi genişləndirilmiş, müasir tələblərə cavab verən təhsil ocaqları tikilib istifadəyə verilmişdir.

Bu gün təhsil siyasəti ümummilli liderimizin təməlini qoyduğu, möhkəmləndirdiyi etibarlı zəmin üzərində davam və inkişaf etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin böyük səyləri sayəsində təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilmişdir. Dövlət başçısının sözləri ilə desək: ***"...İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı möhkəmlənir".***



Şahbuz rayon Biçənək kənd tam orta məktəbi

Təhsilin inkişafına göstərilən yüksək diqqət həm də Azərbaycanın dünya miqyasında tanıdılmasına, öz layiqli yerini tutmasına xidmət edir. Bu məqsədyönlü siyasətin nəticəsidir ki, hazırda müstəqil Azərbaycan dövləti öz inkişafını, sadəcə, təbii sərvətlərin gətirdiyi gəlirlərə bağlamır, həm də mövcud resurslarını güclü insan kapitalının formalaşdırılması yönümündə qurur. Respublika iqtisadiyyatının yüksək inkişaf tempi təhsilin dünya standartları səviyyəsinə qalxması üçün yeni dövrün tələblərinə cavab verən çevik islahatlar aparmağa imkan yaratmışdır.

Dövlət başçısının bu sahəyə xüsusi diqqətlə yanaşması həm də müstəqil respublikamızın sürətli iqtisadi inkişaf yolunda olması, ildən-ilə daha geniş maliyyə imkanları qazanması ilə bağlıdır. Belə mühüm mərhələdə mövcud uğurların qorunub saxlanılması üçün idarəçilikdə yüksək elmi-intellektual səviyyənin təmin edilməsi son dərəcə vacibdir. Son illərdə təhsilin inkişafına xidmət edən fərman və sərəncamların imzalanması, dövlət proqramlarının təsdiq edilməsi ölkə rəhbərinin bu sahəyə necə böyük həssaslıqla, diqqətlə yanaşdığını əyani surətdə təsdiqləməkdədir.

Ölkə rəhbərinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl tədbirlər nəticəsində Azərbaycanda sosial-iqtisadi inkişafla yanaşı, elmi intellektual tərəqqiyə nail olunmuş, dövrün tələbləri ilə uzlaşan təhsil islahatları həyata keçirilmişdir. Bu gün Azərbaycanda milli maarifçilik ənənələri saxlanılmaqla dünya təhsil sisteminə inteqrasiya prosesi gedir. Ölkəmizdə təhsilin müasirləşdirilməsi və problemlərinin mərhələli həlli, müəllim kadrların hazırlığı, inkişaf etmiş dövlətlərin bu sahədəki təcrübəsinin mənimsənilməsi, ümumtəhsil məktəblərində kompüter və informasiya texnologiyalarının geniş tətbiqi məsələləri də dövlət başçısının xüsusi diqqət mərkəzindədir. Dövlət büdcəsində təhsilə ayrılan xərclərin ildən-ilə artırılması bu sahənin keyfiyyətcə yeniləşməsi üçün ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsinə imkan vermişdir. Ötən müddətdə təhsil sahəsində çalışanların əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması da bu sahəyə xüsusi qayğının təzahürüdür.

Azərbaycan Prezidenti ölkənin gələcəyini zəngin maddi sərvətlərdə deyil, haqlı olaraq məhz insan kapitalının formalaşmasında görür. Bu da ölkə rəhbərinin dünyadakı müasir inkişaf meyillərini düzgün qiymətləndirməsindən xəbər verir. Dövlət başçısı təhsil sahəsinə böyük diqqətin dövlət siyasəti olduğunu bəyan edərək demişdir: ***"Azərbaycanda, bütövlükdə, təhsil sahəsi müasirləşir, yeniləşir. Həm təhsilin maddi-texniki bazası möhkəmlənir, həm də tədris prosesi yeniləşir. Bu sahəyə çox böyük diqqət verməliyik. Maddi-texniki bazanın möhkəmləndirilməsi işlərində Azərbaycanın iqtisadi imkanları, ilbəil artan büdcəmiz, investisiya xərclərinin artırılması aparıcı rol oynayır. Əlbəttə, dövlət siyasəti ondan ibarətdir ki, ilk növbədə, təhsil sahəsinə böyük diqqət göstərilir".***

Müasir qloballaşma dövründə dünya elminə, təhsilinə inteqrasiya vacib sayılaraq azərbaycanlı gənclərin xaricdə təhsil almasına da ciddi diqqət yetirilir. Azərbaycan Prezidentinin "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında" Sərəncamı bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Hazırda azərbaycanlı tələbələr dünyanın nüfuzlu ali məktəblərində təhsil alırlar.

Ölkəmizin bütün regionlarında, həmçinin Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet istiqamət təşkil edir. Son illər yeni inkişaf yoluna qədəm qoyan muxtar respublikamızda təhsil sahəsinə də böyük qayğı göstərilir. Müasir tələblər səviyyəsində inşa olunan təhsil müəssisələri bu sahənin inkişafına yeni üfüqlər açır. Məktəb tikintisi təkcə Naxçıvan şəhəri və ya rayon mərkəzləri ilə məhdudlaşmır, həmçinin ucqar dağ və sərhəd kəndlərində də ən müasir tələblərə cavab verən, perspektivə hesablanmış yeni məktəb binaları tikilir. İstifadəyə verilən məktəblərin hər birində müasir texniki avadanlıqlar quraşdırılmış, kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradılmış, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarına verilmişdir.

Dövlətimiz hər zaman müəllimlərin, qabaqcıl təhsil müəssisələrinin əməyini yüksək qiymətləndirir, onları ali təltiflərə layiq görür. Bu il muxtar respublikamızdan 5 müəllim və muxtar diyarımızdakı 3 məktəb "Ən yaxşı müəllim" və "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqələrində müvəffəqiyyət qazanaraq mükafata layiq görülmüşlər. Müəllim əməyinin yüksək qiymətləndirilməsinin və ən ucqar dağ kəndlərində belə, müasir memarlıq üslubunda məktəb binalarının tikilməsinin, onların hər cür maddi-texniki baza ilə təmin olunmasının nəticəsidir ki, ali məktəbləri yenicə bitirmiş kadrlar da heç tərəddüd etmədən bu təhsil ocaqlarında pedaqoji fəaliyyətə başlayırlar.

Məktəblərin pulsuz dərslik və bədii ədəbiyyatlarla təminatının diqqət mərkəzində saxlanılması, məktəb kitabxanalarının komplektləşdirilməsi də bu sahəyə göstərilən yüksək dövlət qayğısının parlaq ifadəsi kimi diqqəti cəlb edir. Son 8 ildə muxtar respublikanın təhsil müəssisələrinə 1 milyon 611 min 750 nüsxə dərslik, 620 min 117 nüsxə bədii ədəbiyyat, 16 min 720 ədəd xəritə, müxtəlif fənlərə dair 86 min 750 ədəd plakat, şahmatın tədrisi üçün 325, ayrı-ayrı fənlərin tədrisi üçün isə 2 min 140 ədəd elektron tədris vəsaiti verilmişdir. Tədrisin keyfiyyətinin yüksəldilməsi muxtar respublikada ali məktəblərə qəbulun səviyyəsini ilbəil artırmışdır. Cari ildə ümumtəhsil məktəblərini 4186 məzun bitirmiş, onların 3238-i ali məktəblərə sənəd vermişdir. Məzunlar arasında xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 129 nəfər olmuşdur. Muxtar respublikamızda hərbi təhsilə maraq xeyli artmış, ümumtəhsil məktəblərindən 995 şagird Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün sənəd vermişdir. Ali məktəblərə qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 1676 nəfəri tələbə adını qazanmışdır. Onlardan 312 nəfəri 500-700 intervalında bal toplamışdır. Ümumilikdə, son 9 ildə ümumtəhsil məktəblərini bitirən məzunlardan 11 min 618 nəfəri ali məktəblərə qəbul olunmuş, onlardan 1988-i 500-700 intervalında bal toplamışdır.

Kəngərli rayon Xıncab kənd tam orta məktəbi



Hər il yüksək bal toplayan məzunlarla Ali Məclis Sədrinin görüşməsi də artıq ənənəyə çevrilmişdir. Bu isə muxtar respublikada təhsilə göstərilən böyük qayğı kimi gənclərin də məsuliyyət hissini artırır, onları ölkəmizin inkişafı naminə təhsildə böyük uğurlar qazanmağa sövq edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu il avqust ayının 20-də tələbələrlə keçirdiyi görüşdə dediyi kimi: ***"Gənclərin aldığı təhsil, qazandığı bilik və peşə Azərbaycan xalqının və dövlətinin gələcəyidir. Bu mənada biz hər bir gəncə böyük ümidlə baxırıq və inanırıq ki, sizlər müstəqil Azərbaycanda millətimizə və dövlətimizə sədaqətlə xidmət edəcəksiniz. Seçdiyiniz ixtisas üzrə yaxşı bilik almaq, peşə öyrənmək, ölkə və xalq üçün faydalı olmaq qarşınızda əsas fəaliyyət istiqaməti kimi dayanmalıdır. Ali təhsil almaqla və peşə öyrənməklə yanaşı, xalqımızın adət-ənənələrinə, milli dəyərlərinə, eləcə də ümumbəşəri dəyərlərə dərindən yiyələnməlisiniz. Bizim təhsilimizin məqsədi həm də yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər yetişdirməkdir. Unutmayın ki, Azərbaycanın gələcəyi sizə etibar olunacaqdır. Ölkəmizin rifahı üçün çalışmalı, müstəqil dövlətimizə, Vətənimizə və xalqımıza layiq mütəxəssislər kimi yetişməli, daim azərbaycanlı olmağınızla fəxr etməlisiniz".***

Muxtar respublikada təhsilə göstərilən qayğının davamlı xarakter alması gənclərimizin xarici ölkələrdə təhsil almalarına da geniş imkanlar açır. Muxtar respublika gəncliyinin səsi artıq dünyanın inkişaf etmiş ölkələrinin universitetlərindən gəlir.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə elm, təhsil, mədəniyyət və digər sahələrdə baş verən əsl intibah Azərbaycanın bugünkü inkişafının istinad nöqtəsidir. Ölkəmizdə, o cümlədən muxtar respublikamızda təhsil sahəsində qazanılan uğurlar bunu bir daha təsdiqləyir. ***"Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır",*** – deyən xalqımızın böyük oğlu Heydər Əliyev harada olmasından və yaşamasından asılı olmayaraq, gənclərimizin layiqli, bilikli, təhsilli vətəndaş kimi yetişmələrinin, daim əsl azərbaycanlı mövqeyində dayanmalarının vacibliyini dönə-dönə vurğulayırdı: ***"Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafı, elminin inkişafı, təhsilinin inkişafı, insanların rifah halı o qədər də yaxşı olacaqdır..."***

**Bu gün davamlı olaraq təhsil sahəsində islahatlar həyata keçirilməkdədir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir. Çünki qazanılan bütün nailiyyətlər məhz Heydər Əliyev ideyalarından güc alır.**

**Namiq MƏMMƏDOV**
*Azərbaycan Respublikasının əməkdar müəllimi*

# Bir gün Məmməd Araz yurdunda

## *Bu yurdun sakinləri torpağa bağlı insanlardır*

***Məmməd Araz ucaldığı zirvəyə bu yoldan keçib***

Şahbuz şəhərindən Nursu kəndinə gedən yol boyu bu yaşayış məntəqəsini ölkəmizin hüdudlarından belə, kənarda tanıdan gözəl şairimiz Məmməd Araz haqqında düşünürdüm. Düşünürdüm ki, onun ucaldığı zirvəyə gedən yolun başlanğıcı elə indi keçdiyim bu yol olub. Sonralar bu yolla şairin neçə-neçə pərəstişkarı, ölkəmizin görkəmli şair və yazıçıları Nursuya üz tutublar.

Onu da təsdiq edərik ki, bu gün çoxlarının dilinin əzbəri olan şeirlərindən hansısa bu yollarda misralanıb. Bu yolların sığındığı və möhtəşəmlik, ucalıq rəmzi kimi baş-başa verən Toğluqaya, Səngərtəpə, Motalqaya, Çadırlıdaş dağları, bu dağların otu, gülü-çiçəyi, dumanı, leysanı, küləyi, Şahbulaq, Kazımbulaq, Qubadbulaq, Yeddibulaq, Novlu, Kəklikli çeşmələri onun ilk ilham mənbəyi olub. “Mən uca dağlara babam demişəm”, – deyən şairə ömrünün sonuna qədər bu yerlər ilham verib. Onun şeirlərindən qəlbimizə süzülən xoş duyğuların təməli elə bu mənbədən qaynaqlanıb. Bu mənbədən qaynaqlanan hansı şerini yada salsaq, şair qəlbinin vətəndaşlıq poeziyası öz qollarını şeirsevərlərə açacaq.

Kəndə yaxınlaşırıq. Uzaqdan yolun kənarında şairin böyük portreti görünür. Bir vaxtlar özünün gedib-gəldiyi yolda indi onun portreti Nursuya gəlib-gedənləri qarşılayır və yola salır. Bu duyğularla kəndə daxil oluruq. Düşüncələr ovqatımıza yüksək hisslər qatıb. Budur, Nursu kəndinin meydanı. Yolun sağında məktəb binası. İlk olaraq təhsil ocağına baş çəkirik. Pedaqoji kollektiv yeni dərs ilinə hazırlaşır. Bura üz tutmaqda məqsədimiz həm də şairlə bağlı kənd ziyalılarının xatirələrini dinləməkdir. Məktəbin ədəbiyyat müəllimi Qəzənfər Məmmədov ilk həmsöhbətimiz olur:

– Nursunu ölkəmizdə tanıdan Məmməd Araz olub. Bu qədim yaşayış məntəqəsi ilə öyünməyə hər bir nursulunun mənəvi haqqı var. Nursu kənd tam orta məktəbində ilk təhsillərini alan alimlər Firudin Hüseynov, Adil Bağırov, Arif Ağalarov, İbrahim Kazımbəyli və başqaları bu kəndin yetirmələridir. Sözsüz ki, Nursuya böyük şöhrət qazandıran belə insanların fövqündə Məmməd Araz dayanır. Bu haqqı o, hələ sağlığında qazanıb, əbədi olaraq da bu haqqı yaşadacaq. Qəzənfər müəllim deyir ki, bu gün kənddə Məmməd Arazdan danışarkən, onun vətənpərvərlik hissləri ilə yoğrulmuş poeziyasından bəhs edərkən şairin orta məktəbdə ədəbiyyat müəllimi olmuş Bayram Məhərrəmovla görüşməmək olmaz. Üz tuturuq Bayram müəllimgilə. Yaşı 85-i ötən bu kənd ziyalısı və ağsaqqalı gəlişimizin məqsədini biləndə bir qədər doluxsunur:

– Uşaq yaşlarında elə duyğularla yaşayırdı ki, özüm də təəccüblənirdim. Güclü yaddaşı var idi. Elə məktəbdə oxuyarkən düşünürdüm ki, o, yaxşı ədəbiyyatçı ola bilər. Lakin ədəbiyyatçı olmadı. Başqa ixtisası seçdi. Bununla belə, o, sübut etdi ki, xalqın şairi olmaq, oxucu qəlbini fəth etmək üçün hansı sənətin sirlərini öyrənmək əsas deyil. Şeirlərinin hər sətri fəlsəfi məzmun daşıyır. Bir dəfə oxuduğun şerini ikinci dəfə oxuyarkən yeni çalarlar tapırsan.

Bayram müəllim deyir ki, bu gün hər bir məktəbyaşlı nursulu uşağı Məmməd Arazın şeirlərinin çoxunu əzbər bilir. Bunun özündə də bir səbəb var. Düşünərsiniz ki, bu, yəqin, yerlilik təəssübüdür. Başlıca səbəb bu deyil. Səbəb Məmməd Araz poeziyasının böyüklüyüdür, xəlqiliyidir. Odur ki, bu poeziya sənət kəhkəşanında özünə əbədi yer tutub. “Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı Sərəncam Məmməd Arazın şəxsiyyətinə və yaradıcılığına böyük diqqət və ehtiramın nümunəsi kimi məni də şairə dərs demiş bir müəllim kimi ürəkdən sevindirdi. Bunun ardınca “Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı bu sevincimizə daha bir sevinc qatdı. Muxtar respublikada insana, sənətkara qayğının ifadəsini bir daha gördük.

Məktəbdə kimlə söhbət etdiksə, söhbətə Məmməd Arazın şeri ilə başladı. Şairə oxucu məhəbbətini sözlə ifadə edə bilmirik. Bu yerdə yadıma şairin misraları düşür:

*Salam, ay zirvələr, salam, a dağlar,*
*Yenə bir qayada göyərdin məni.*
*Salam, ay zirvələr, salam, a dağlar,*
*Yenə bir nəğməlik kövrəldin məni.*

Şair qədirbilən insanların qayğısını bir daha gördü. Bu gün-sabah Nursuda Məmməd Arazın ev-muzeyi Məmməd Arazsevərlərin istifadəsinə veriləcək.

***Qədim adət-ənənələri qorunan kəndin adı və tarixi nə deyir***

Kəndin ziyalılarının toplandığı təhsil ocağında Azərbaycana Məmməd Araz bəxş edən qədim yurd yerinin qədim adət-ənənələri, tarixi, “Nursu” sözünün etimologiyası ilə maraqlandıq. Öyrəndik ki, qədim yaşayış məntəqələrindən biri olan Nursuda xalqımızın milli dəyərləri bu gün də böyük mühafizəkarlıqla qorunur. Dünənə, ulu keçmişə bağlılığın, milli dəyərlərə ehtiramın ifadəsini nursuluların qonaqpərvərliyində, ağsaqqala, ağbirçəyə göstərilən diqqətdə, adət-ənənələrə yazılmamış qanun kimi riayət etməkdə görmək olar. Bu yerdə yenə təqaüdçü müəllim Bayram Məhərrəmov söhbətə qoşulur:

– Muxtar respublikanın yaşayış məntəqələrinin böyük əksəriyyətində olmuşam. Adət-ənənələrimizin qorunduğu yaşayış məntəqələri daha çox ucqar kəndlərdir. Nursuda da belədir. Onu da deyim ki, olduğum kəndlərdə çox fikir vermişəm: harada ağsaqqal öyüd-nəsihətinə qanun kimi baxılır, o yerdə adət-ənənələr də qorunur. Diyarımız uzunömürlülər diyarıdır. Yəni öyüdünə, nəsihətinə ehtiyac duyduğumuz belə insanlar çoxdur. Deməli, adət-ənənələrimizin yaşadılmasında onların nüfuzu böyük rol oynayır. Bu gün muxtar respublikamızda adət-ənənələrin qorunmasına dövlət səviyyəsində ciddi diqqət yetirilir. Deməli, tariximizlə yaşıd olan adət-ənənələrimiz bundan sonra da yaşayacaq. Nursuya gəldikdə gözünüz önünə 30-40 il bundan əvvəl gördüyümüz adət-ənənələrimizi gətirin. İstər toy, istər yas mərasimləri olsun, istərsə də digər adətlərimiz. Onlar bu gün də yaşadılır.

Kəndin tarixi haqqında bildirdilər ki, rayon mərkəzindən 8 kilometr şimal-şərqdə, dağətəyi ərazidə yerləşən bu kənddə son orta əsrlərə aid arxeoloji abidə aşkarlanıb. Hündür təpə üzərində yerləşən bu abidə müsəlman qəbiristanlığıdır. Müəllimlərin və yaşlı kənd sakinlərinin dediklərinə görə, qəbiristanlıqda qəbirüstü qoç fiqurları olub, lakin onların əksəriyyəti dağıdılıb. Qəbiristanlığın təxminən XV-XVI əsrlərə aid olması ehtimal edilir. Kəndin adının ilkin variantı “Nursu” şəklində olub. Çoxmənalı “nur” sözü bir neçə mənanı ifadə edir. Aydınlıq, işıq, şəraf, dağ silsiləsi, sıldırım, göl anlamlarında işlənir. “Su” sözündən ibarət olan adın ikinci tərəfi birinci tərəflə birləşərək “Sıldırım dağlarda yerləşən göl” mənasına uyğun gəlir. Bu kəndin yetirməsi, filologiya elmləri doktoru Adil Bağırovun qənaətinə görə, belə adlanma kəndin relyef quruluşu, ərazisində çoxlu su mənbələrinin olması faktı ilə də təsdiqlənir. Həmin su mənbələrinin bir neçəsinin adını biz yuxarıda sadalamışıq. “Nursu” adının daha dəqiq olduğu nəzərə alınaraq hazırda kənd bu adla rəsmiləşdirilib.

***Nursuda bugünkü həyat***

Nursu kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Nəbi Əmişov qədim yaşayış məntəqəsinin bu günü haqqında bizə ətraflı məlumat verdi. Bildirdi ki, 3644 hektar ərazisi olan kənddə 843 sakin yaşayır. Onlar 221 təsərrüfatda birləşiblər. 329 hektar pay və böyük həcmdə həyətyanı torpaq sahələrindən istifadə olunan Nursuda təsərrüfatın dağlıq ərazilər üçün spesifik olan sahələrinin inkişafına ciddi önəm verilir. Bu sahələrdə hər il xeyli uğurlar qazanılır. Bununla yanaşı, kənddə taxılçılıq da inkişaf etdirilir. Cari ildə torpaq mülkiyyətçiləri 68 hektar taxıl əkini sahəsindən məhsul tədarük ediblər. Hazırda gələn ilin taxılı üçün şum qaldırılması davam etdirilir. Əli Kazımov ömrü boyu təsərrüfatda çalışıb. Onun söhbəti:

– Çoxları elə bilir ki, dağlıq ərazilərdə yaşamaq çətindir. 30-40 il bundan qabaq belə düşünənlərə haqq qazandırmaq olardı. Çünki o vaxt yollar bərbad vəziyyətdə idi. Telefon, televizor barədə söhbət gedə bilməzdi. İşıqlar tez-tez sönürdü. Nəqliyyat yox idi. Bu gün isə vəziyyət tamamilə başqa cürdür. Elə bizim bu Nursuda mobil telefonlar da işlədilir. Kənddə antena quraşdırılıb. Qazımız, işığımız öz yerində. Yollarımız abadlaşdırılıb. Hər gün kənddən rayon mərkəzinə və Naxçıvan şəhərinə marşrut-avtobuslar işləyir. Kitabxanamız, mədəniyyət evimiz var. Kənd adamına bundan başqa nə lazımdır ki? Bir də onu deyim ki, daha torpaqlar da özümüzün şəxsi istifadəmizdədir. Kim nə istəyir, onu da əkib-becərir. Bunun üçün də dövlətimiz qayğı göstərir. Hər il kreditlər verilir, müxtəlif yardımlar olunur. Mən özüm bu yay 3 hektar sahədən taxıl götürmüşəm. Gələn il üçün əkəcəyim sahəni də şumlatmışam. Bu gün-sabah əkini başa çatdıracağam. Həyətyanı təsərrüfatımda ailəmin illik ehtiyacını ödəyəcək ərzaq məhsulları yetişdirmişəm. Onu da deyim ki, 150 arı ailəsi saxlayıram. Hər il də yüksək qazanc əldə edirəm.

Hərbçi Elman Süleymanov təqaüdə çıxdıqdan sonra Nursuda torpaq sahəsi alıb. Burada özünə fərdi ev tikdirib. Maldarlıqla məşğul olur. O da gün-güzəranından xeyli razılıq edir.

Salman Ələkbərov 150 baş xırdabuynuzlu heyvan saxlayır. Deyir ki, belə şəraitdə pis yaşamağa heç kimin haqqı yoxdur. Kim belə yaşayırsa, günah onun özündədir.

İcra nümayəndəsi deyir ki, Nursu bu gün ət, süd, süd məhsulları istehsalına görə rayon üzrə ilk yerlərdən birini tutur. 600 arı ailəsi saxlanılan kənddə bu sahə ilə məşğul olanlar hər il muxtar respublika bazarlarına yüksəkkeyfiyyətli bal məhsulu çıxarırlar. Nursuda ərsəyə gələn bu məhsulun Bakı şəhərində də alıcıları çoxdur.

Nursuda bugünkü həyat barədə qısaca olaraq bu qədər məlumatla kifayətlənirik. Çünki hər bir nursulu ailəsi təsərrüfatın bu sahələri ilə məşğul olur, bunun üçün göstərilən dövlət qayğısından səmərəli istifadə edir, gün-güzəranını yaxşılaşdırır.

***Məmməd Araz yurdundan ayrılarkən***

Günəş dağlar arxasına çəkilməkdə idi. Bu gözəlliyi hər gün yaşayan nursulular belə yurd yerinin şöhrətini daim yüksək tutur, qədim diyarımızın bu gününün gerçəkliklərinə sevinir, sabah bundan da xoş günlərə qovuşacağına inanırlar. Bu inam onların həyat kredosudur.

**Muxtar MƏMMƏDOV**

***Muxtar respublikamızın təbii sərvətlərindən səmərəli istifadə olunmaqla yeni emal və sənaye müəssisələri həyata vəsiqə alır, daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli yerli məhsullar istehsal edilir, əhalinin məşğulluğu təmin olunur, maddi rifahı daha da yaxşılaşır. Belə istehsal müəssisələrindən biri də Babək rayonunun Sirab kəndində fəaliyyət göstərən “Savalan-S” kiçik müəssisəsidir. 1997-ci ildən fəaliyyətə başlayan müəssisədə Rusiyadan alınmış, gündəlik istehsal gücü 2000 şərti butulka olan yarımavtomatlaşdırılmış istehsal xətti quraşdırılmış, mineral su istehsalına başlanmışdır.***

# “Qızıl su” əmtəə nişanı ilə keyfiyyətli limonadlar satışa çıxarılır



Mineral su müəssisəyə “Kalbayağıl” adlanan yerdəki bulaqlardan yeraltı paslanmayan borularla çəkilmişdir. Su mənbəyinin təhlükəsizliyini təmin etmək məqsədilə bulağın ətrafı hasara alınmış, burada bina tikilmişdir. Məlumat üçün qeyd edək ki, mineral su yatağı 3 yeraltı mineral su hövzəsindən ibarətdir və Naxçıvan şəhərindən 14,6 kilometr şimal-şərqdə, Babək rayonunun Sirab kəndi ərazisində, dağ ətəyində yerləşir. Mineral su əvəzsiz süfrə suyu olmaqla bərabər, yüksək müalicəvi əhəmiyyətə malikdir. Belə ki, ağciyər, öd kisəsi, həzm yolları və böyrək xəstəlikləri, mübadilə pozğunluqları zamanı istifadə edilir. Həmçinin qan dövranını, tənəffüsü, regenerasiyanı, ürək fəaliyyətini yaxşılaşdırır, mədə-bağırsaq xəstəlikləri zamanı şirəqovucu kimi əhəmiyyətlidir, dilin dad reseptorlarının həssaslığını yüksəldir, aerozol şəklində tənəffüs yolları xəstəliklərinə və allergiyaya müsbət təsir edir.

Uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə istehsal olunan məhsullara artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və bunun nəticəsi olaraq, əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi, daha müasir texnoloji avadanlıqların alınıb gətirilməsi zərurəti yaranmışdır. Digər sahibkarlıq subyektləri kimi, bu müəssisə də dövlət qayğısından bəhrələnmişdir. Müəssisəyə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 2012-ci ilin mart ayından başlayaraq mərhələlərlə, ümumilikdə, 130 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Babək rayonunun Sirab kəndində istehsal müəssisəsi üçün daha əlverişli yerdə torpaq sahəsi ayrılmış, burada müasir layihə əsasında istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati bina və digər yardımçı otaqlar tikilib istifadəyə verilmişdir. 2013-cü ilin aprel ayında istifadəyə verilən müəssisədə istehsal gücü saatda 12 min ədəd şərti butulka olan daha müasir texnoloji avadanlıqlar quraşdırılmış, istehsal prosesi avtomatlaşdırılmışdır. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə xüsusi avtomaşın alınmışdır. Təbii ki, yeni istehsal sahələrinin yaradılması daxili bazarın müxtəlif çeşiddə yerli məhsullarla təmin edilməsi ilə yanaşı, əlavə iş yerlərinin açılmasına da əlverişli şərait yaradır. Hazırda müəssisədə “Qızıl su” əmtəə nişanı ilə müxtəlif çeşidlərdə limonad və mineral su istehsal olunur.

Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə istehsal prosesi suyun və müxtəlif meyvə şirələrinin hazırlanması, qablaşdırılması mərhələlərindən keçməklə aparılır. Müəssisəyə gələn su əvvəlcə qum filtrindən keçirilib çənə yığılır və suyun səviyyəsi rəqəmli şüşə borularla müəyyənləşdirilir. Ümumi tutumu 25 ton olan çəndə su 2 gün saxlanılır. Sonra yenidən filtrdən keçirilərək istehsal sahəsinə verilir. Suyu boşaldıqdan sonra çən yuyulur, dezinfeksiya edilir. Mineral su soyuducu qurğularda 4-8 dərəcəyədək soyudularaq filtrdən və ultrabənövşəyi şüadan keçirilib ozonlaşdırıldıqdan sonra istehsal sahəsinə ötürülür. Limonad istehsalı sahəsində isə su ilə müxtəlif meyvə şirələri reseptə uyğun qarışdırılıb ayrı-ayrı çənlərdə müəyyən olunmuş müddətdə və temperaturda saxlanılaraq istehsal xəttinə ötürülür.

İstehsal prosesi tam avtomatlaşdırılmışdır. Müəssisədə müxtəlifhəcmli plastik butulkalarda olmaqla, 6 çeşiddə – tərxun, armud, limon, üzüm, kola, portağal şirələrindən hazırlanmış limonad və 2 çeşiddə mineral su istehsal edilir. 2011-ci il fevral ayında “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının Plastmas Kapsul və Qapaq İstehsalı Müəssisəsinin fəaliyyətə başlaması bu müəssisənin də plastmas taralara olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan vermişdir.

Müəssisədə məhsulun keyfiyyətinə laborator nəzarət təmin olunmuşdur ki, burada da suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bir sözlə, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyətə başlayan müəssisədə istehsal prosesi avtomatlaşdırılaraq standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunmuşdur.

“Qızıl su” əmtəə nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Gələcəkdə istehsal edilən məhsulların ölkəmizin digər regionlarında da satışa çıxarılması nəzərdə tutulub.

**Kərəm HƏSƏNOV**

*Azərbaycanda yeni tədqiqat sahələrindən biri də heraldika – gerbşünaslıq elmidir. Heraldika rəmzlərin – simvolların öyrənilməsi ilə məşğul olur. Əslində, heraldikanın tarixi çox qədimdir. Çox təəssüflər olsun ki, XX yüzillikdə bu mühüm elm sahəsi Azərbaycanda, belə demək mümkünsə, unudulmuşdur. Azərbaycan xanlıqlarının bayraqlarının tədqiqində heraldika araşdırıcıların köməyinə gəlir. Bayraqların rənglərinin böyük heraldik əhəmiyyəti var. Məsələn, qırmızı rəng məhəbbət, mərdlik, cəsurluq, igidlik və qorxmazlığ, yaşıl rəng ümid, azadlıq, sevinc, qızılı rəng ucalıq, mavi sədaqət rəmzidir.*

# Naxçıvan Kəngərlilərinin nəsil gerbi haqqında



**Naxçıvanın Kəngərli xanlarının nəsil gerbi**



**Naxçıvan qəzasının gerbi – 1840**

Azərbaycan xanlıqlarının bayraqlarının üzərində çəkilən təsvirlərin də dərin fəlsəfi ideyası, eləcə də türkçülüklə və islamla bağlılığı vardır.

Gerb də milli dövlətçiliyin atributlarından biridir.

Tez-tez suallar verirlər ki, Naxçıvan xanlığının gerbi olubmu? Əgər olubsa, təsviri necədir?

Əvvəlcə qeyd edək ki, XX əsrin sonlarında Azərbaycan yenidən müstəqilliyini bərpa edəndən sonra heraldika və geneologiya sahəsində püxtələşmiş gənc alimlərdən biri Səbuhi Əhmədovdur. Milli Azərbaycan Tarixi Muzeyində işləyən heraldika üzrə yeganə mütəxəssis olan Səbuhi Əhmədovun maraqlı, beynəlxalq səviyyəli məqalələri xalqımızın heraldikasının zənginliyini və qədimiliyini bir daha təsdiqləyir.

Yuxarıdakı suala cavab vermək üçün yaxın tarixə ekskurs etməyimiz maraqlı olar. 1922-ci ildə V.Çixinski adlı bir müəllifin "Kavkazskiy qerovnik" adlı əlyazmasında xan Naxçıvanskilərin nəsil gerbləri haqqında məlumat verilmişdir. Qeyd edək ki, Naxçıvanskilər də Kəngərli tayfasına mənsubdurlar. V.Çixinski yazır: "Naxçıvanskilər Naxçıvan xanlarındandırlar. Xan Hüseyn (söhbət Hüseyn xan Naxçıvanskidən gedir – müəllif) Rusiya ordusunun general-leytenantı olub. 1920-ci ildə Petroqradda vəfat edib. Ona Rusiya imperiyasının knyaz titulu verilib". Çixinski bu məlumatları professor V.K.Lukomskoyun tədqiqatlarına əsasən yazdığını qeyd etmişdir. Professor V.K.Lukomskoy Rusiyanın Hökumət Senatının Heraldika Departamentində Gerb şöbəsinin axırıncı rəisi olmuşdur. O, böyük bir üzük kolleksiyası toplayaraq Rusiya imperiyasında olan nəsillərin və xanlıqların gerbləri haqqında məlumatlar yazmışdır. Həmin üzük kolleksiyasında mövcud olan Hüseyn xan Naxçıvanskinin üzüyünün qaşındakı gerbin onun nəslinə mənsub olduğunu V.K.Lukomskoy təsdiqləmişdir. Rusiyada yaşayan heraldika alimlərinin yazılarından məlum olur ki, Hüseyn xanın knyazlığını təsdiqləyən sənəd, hələlikdə, tapılmayıb.

Hüseyn xanın üzüyünün qaşında olan nəsil gerbini ilk dəfə milliyyətcə gürcü olan heraldika ustası D.A.Qulordava 2000-ci ildə Moskvada "Qerboved" jurnalında dərc etdirib. Həmin gerbin rəngsiz olduğunu yazan tədqiqatçı Kəngərli tayfasına məxsus Naxçıvan xanlarının nəsil gerbini belə izah edir: "Naxçıvanskilərin nəsil gerbi özündə, əsasən, iki qalxanı birləşdirir. Böyük qalxan dörd hissəyə bölünüb. Ortada kiçik qalxan var. Kiçik qalxanın üzərində nizənin ucuna sancılmış kəsik baş var. Böyük qalxanın birinci hissəsində altı payadan ibarət çəpər var, ikinci hissədə qala, yuxarısında iki altıguşəli ulduz var. Üçüncü hissədə at şəkli, dördüncü hissədə isə canavar şəkli təsvir olunub. Canavar yarımqövsün içindədir. Böyük qalxanı iki aslan saxlayır. Gerb cilalanmış dağ mantiyası (sədəfi) və xan tacı ilə bəzədilmişdir. Gerbin ən uca yerində aypara və beşguşəli ulduz vardır".

Burada olan heraldik təsvirlərə gələcək yazılarda aydınlıq gətirəcəyik. Bizcə, bu elə xanlığın da gerbi olmuşdur. Sadəcə, bunu təsdiqləyən fərmanları, yaxud təsvirləri tapmaq tədqiqatçının qarşısında duran əsas məsələdir.

Biz Naxçıvan xanlarının nəsil şəcərəsini hazırlayarkən nəsil gerbinin açıq-yaşıl rəngdə təsvirini verməyi qərara aldıq. 1830-cu ildə Kəngərli süvarilərinə məxsus bayrağın, bir sıra tədqiqatçıların yazdığına görə, süvarilərin papaqlarındakı ulduzun yaşıl rəngdə olmalarını əsas götürdük. Bundan əlavə, hələ XX yüzilliyin 80-ci illərində Naxçıvanın qocaman sakinləri xanlığın bayrağının yaşıl olduğunu söyləyirdilər. Cəmşid xan Naxçıvanskinin Makuda yaşayan xanası oğlu (son illərdə vəfat etmişdir) İsmayıl xan anası Nazxanım İrəvanskayadan bu gerb haqqında eşitdiklərini yazının müəllifinə maraqla danışmışdır. Hətta anası gerbi və bayrağı Tehranda Rəhim xanın evində gördüyünü oğluna deyibmiş.

Əgər biz Rəhim xanın varislərinin, yaxud Cəmşid xan Naxçıvanskinin kiçik qardaşı, polkovnik Davud xanın varislərini tapa bilsəydik, çox suallarımıza aydınlıq gətirə bilərdik və hərbçi generallarımızın fotoşəkilləri muzey salonlarımızı daha da zənginləşdirərdi.

Əgər Naxçıvan xanlığının bayraqlarından birini tapa bilsək, gerblə də bağlı suallara cavab tapıla bilər. Bizcə, hələlikdə, bu gerbin "Kəngərlilərin nəsil gerbi" kimi tanınması daha yaxşıdır. Bir də ki, Hüseyn xan elə-belə gerbi üzüyünün qaşına həkk etdirməzdi. Bu yadigar ona ulu babalarından qalan mirasdır. Gerblə də bağlı axtarışlarımızı davam etdiririk.

Məlumat üçün bildirək ki, Naxçıvan qəzasının da 1840-cı ildə özünəməxsus orijinal gerbi olmuşdur. Bu gerbin təsviri Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır.

**Musa QULİYEV**
***tarix üzrə fəlsəfə doktoru***

# İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində "bərbər" və "qadın bərbəri" peşələri üzrə kurslar təşkil edir. Tədrisin müddəti 2 aydır. Muxtar respublikanın rayonları üzrə tələbat aşağıdakı kimidir:

| № | Kəndin adı | Vakant yer | |
|---|---|---|---|
| | | Bərbər | Qadın bərbəri |
| **Şərur rayonu üzrə** | | | |
| 1 | Aşağı Yaycı | - | 1 |
| 2 | Qorçulu | 1 | - |
| 3 | Qarxun | - | 1 |
| 4 | Maxta | - | 1 |
| **Cəmi:** | | **1** | **3** |
| **Babək rayonu üzrə** | | | |
| 1 | Sirab | 1 | - |
| 2 | Yuxarı Uzunoba | 1 | - |
| **Cəmi:** | | **2** | **-** |
| **Ordubad rayonu üzrə** | | | |
| 1 | Biləv | 1 | 1 |
| 2 | Parağa | 1 | - |
| 3 | Behrud | 1 | 1 |
| 4 | Dəstə | - | 1 |
| 5 | Aşağı Əylis | 1 | 1 |
| 6 | Yuxarı Əylis | - | 1 |
| 7 | Aza | - | 1 |
| 8 | Gənzə | 1 | 1 |
| 9 | Nüsnüs | 1 | 1 |
| 10 | Çənnəb | 1 | 1 |
| 11 | Xurs | 1 | - |
| 12 | Nəsirvaz | 1 | - |
| 13 | Ələhi | 1 | - |
| 14 | Nürgüt | 1 | - |
| **Cəmi:** | | **11** | **9** |
| **Culfa rayonu üzrə** | | | |
| 1 | Xanəgah | 1 | - |
| 2 | Milax | 1 | - |
| 3 | Teyvaz | 1 | - |
| **Cəmi:** | | **3** | **-** |
| **Şahbuz rayonu üzrə** | | | |
| 1 | Yuxarı Qışlaq | - | 1 |
| 2 | Biçənək | 1 | 1 |
| 3 | Ayrınc | 1 | 1 |
| 4 | Kükü | 1 | 1 |
| 5 | Qızıl Qışlaq | 1 | 1 |
| 6 | Güney Qışlaq | 1 | - |
| 7 | Sələsüz | 1 | - |
| **Cəmi:** | | **6** | **5** |
| **Kəngərli rayonu üzrə** | | | |
| 1 | Qıvraq qəsəbəsi | - | 1 |
| 2 | Xıncab | 1 | - |
| 3 | Təzəkənd | 1 | - |
| 4 | Çalxanqala | - | 1 |
| 5 | Qabıllı | - | 1 |
| 6 | Yeni Kərki | 1 | 1 |
| **Cəmi:** | | **3** | **4** |

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2013-cü il sentyabr ayının 14-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər.

***1. Yaşayış yerindən arayış***
***2. Şəxsiyyət vəsiqəsinin surəti***
***3. Tibbi yoxlama haqqında arayış***

***Əlaqə telefonu:545-32-33***

# Mat qalmayan şahmat(çılar)ımız

### *Beynəlxalq turnirlərin hegemonları*

Naxçıvan Muxtar Respublikasında idmana və idmançılara göstərilən diqqət və qayğı göz qabağındadır. Bu sahənin bütün növlərində idmançılarımızın qazandıqları uğurlar ildən ilə artmaqdadır. Buna şahmatçılarımızın son zamanlar əldə etdikləri nailiyyətlər bariz nümunədir. Bu günlərdə Türkiyə Respublikasının Bitlis şəhərində Beynəlxalq Şahmat Turniri başa çatıb. İsveçrə sistemi üzrə 9 turdan ibarət olmuş yarışda muxtar respublikamızın 9 şahmatçısı öz qüvvəsini sınayıb. "A" və "B" qruplarında keçirilən beynəlxalq turnirdə təmsilçilərimiz uğurlu nəticələr əldə ediblər. Belə ki, "B" qrupunda mübarizə aparan şahmatçımız Sadiq Məmmədov öz qrupunun qalibi olub. Digər şahmatçımız Zahir Allahverdiyev isə 7 yaşlı şahmatçılar arasında turnir cədvəlini ilk pillədə başa vurub. Mükafata layiq görülmüş şahmatçılarımız kubok və medallarla təltif ediliblər.

Bu, muxtar respublika şahmat məktəbinin cari ildə ilk belə uğuru deyil. 2013-cü ili şahmatçılarımız üçün uğurlu hesab etmək olar. Cari ildə şahmatçılarımız 8 ölkədaxili və 8 xarici ölkədə keçirilən turnirlərdə qüvvələrini sınamaqla nəyə qadir olduqlarını nümayiş etdiriblər. Təbii ki, onlar bu yarışlardan muxtar respublikaya əliboş qayıtmayıblar.

### *Avropa çempionu yetirmiş mərkəz*

Yuxarıda da qeyd etdiyimiz kimi, Naxçıvan şahmatçıları üçün 2013-cü il uğurlu olub. Zəka sahiblərimiz iştirak etdikləri 15-dən artıq turnirdə (bura həmçinin beynəlxalq turnirlər də daxildir) 30-dan çox mükafata layiq görülüblər. Bu ilin 21 aprel-2 may tarixlərində Naxçıvan Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "Naxçıvan Open-2013" Beynəlxalq Şahmat Festivalında 60 şahmatçımız iştirak edib. Onlar 16 ölkədən 31 qrossmeyster, 13 beynəlxalq usta və 9 FİDE ustası arasında 14 mükafat qazanıblar. Elə həmin turnirdə mərkəzin iki üzvü – Emin Hacıyev və Hüseyn Əliyev respublika dərəcəli hakim adını alıblar. E.Hacıyevdən söz düşmüşkən, o, 12-23 iyul tarixlərində Balakəndə keçirilən Respublika Şahmat Olimpiadasında (seminarda) iştirak edib və FİDE arbiter normasını ödəyib. Adıçəkilən olimpiadada Naxçıvan 9 idmançı ilə təmsil olunub və şahmatçılar uğurlu nəticələrlə muxtar respublikaya qayıdıblar. Belə ki, 14 yaşlı Pərviz Qasımov və 10 yaşlı Sadiq Məmmədov çempion adını qazanmağa müvəffəq olublar.

Ölkədən kənarda keçirilən beynəlxalq turnirlərdə isə 11 yaşlı şahmatçımız Rauf Murtuzovun uğurlu çıxışı diqqəti cəlb edir. R.Murtuzov 20-28 iyun tarixlərində Serbiyanın Novi Sad şəhərində məktəblilər arasında keçirilən Avropa çempionatında çempion adına layiq görülməklə bayrağımızı ən uca zirvədə dalğalandırıb. O həmçinin Danimarka (8-14 may) və İspaniyada (Barselonada – 22-31 avqust) keçirilən beynəlxalq turnirlərdə uğurlu çıxış edərək reytinqini 19 pillə artıra bilib.

### *Növbəti turnirlər və düşüncələr*

Şahmatçılarımız Türkiyə Respublikasının Bitlis şəhərində Beynəlxalq Şahmat Turnirində uğurlu çıxış etdikdən sonra növbəti yarışların hazırlıqlarına start veriblər. Artıq zəka sahiblərimizi növbəti həftə daha bir böyük turnir gözləyir. 9-17 sentyabr tarixlərində Gürcüstanın Tbilisi şəhərində "Nona Qaprindaşvili CUP-2013" Beynəlxalq Turniri keçiriləcək və Naxçıvan idmançıları da burada öz qüvvələrini sınayacaqlar. Bu yarışdan dərhal sonra isə zəka sahiblərimizi Bakıda "Baku Open-2013" (18-28 sentyabr) Beynəlxalq Turniri gözləyir.

Türkiyədə uğurla çıxış etmiş şahmatçılarımızın növbəti turnirlərə necə hazırlaşdığı və geridə qalan yarışlarda nələr baş verdiyini öyrənmək üçün Şahmat Mərkəzinə yollandıq. Balakəndə keçirilən olimpiadanın qalibi olan Pərviz Qasımov Bitlisdəki turnirdə bir qədər inamsız təsir bağışlayıb: "Bu turniri özüm üçün uğursuz hesab edirəm. "B" qrupunda mübarizə aparırdım və qrupu 4-cü pillədə başa vurdum. Bir qədər arxayınlıq yaranmışdı. Məhz uğursuz çıxışı bununla əlaqələndirə bilərəm. İndi qarşıdakı yarışlara daha ciddi hazırlaşıb bu uğursuzluğu unutdurmağa çalışacağam".

Urfan Sevdimalıyev isə "A" qrupunda 104 iştirakçı arasında mükafatçılar siyahısına düşməyi bacarıb: "Bu turnirdə ən çətin görüşümü gürcü şahmatçısı, FİDE ustası Georgi Boquturova qarşı keçirdim və məğlub oldum. Buna baxmayaraq, turnirdə uğurla çıxış etdiyimi düşünürəm". Qeyd edək ki, Türkiyənin "Qaziantep" klubu Urfan Sevdimalıyevə iş təklifi edib.

Naxçıvan şahmat məktəbini təmsil edən digər idmançımız Tural Zeynalov daha çox öz tələbəsi – 6 yaşlı Zahid Allahverdiyevin uğuru ilə öyünə bilər. Belə ki, Zahid Allahverdiyev keçirilən turnirin qalibi olub.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Fərzəliyev Vüsal Ələkbər oğlunun adına olan ümumvətəndaşlıq pasportu, hərbi bilet və veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

İ.Qasımov adına Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşları iş yoldaşları Xatirə Möhnətovaya, atası
**MƏMMƏDBAĞIRIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sədaqət Əsgərova və Həlimə Mirzəyeva iş yoldaşları Xatirə Möhnətovaya, atası
**MƏMMƏDBAĞIRIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin kollektivi iş yoldaşları Məhbubə Allahverdiyevaya, həyat yoldaşı
**AKİF ALLAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 3940. Sifariş № 820**